# Mehman

*Əziz oxucular, bu günlərdə tanınmış şair, ədəbiyyatşünas alim, tənqidçi Mehman Qaraxanoğlunun 65 yaşı tamam oldu.*

*Qeyd edək ki, Mehman Qaraxanoğlu 1 may 1957-ci ildə Astara rayonunun Şiyəkəran kəndində anadan olub. Ötən əsrin 80-ci illərindən ədəbi fəaliyyətə başlayan yubileyarımız dörd şeir, bir nəsr və üç ədəbi-tənqidi təhlillər, esselər kitabının müəllifidir. Şeir yaradıcılığı ədəbi tənqidin diqqətini cəlb etmiş, haqqında yüksək fikirlər söylənilmişdir. Son illər ədəbi tənqidlə müntəzəm məşğul olur. O ədəbiyyatşünaslığımızda çox az rast gəlinən hermenevtik metodla (diskursu təfsir, şərh etmək yolu ilə) mətnlərə yanaşır və özünəməxsus, fərqli hissi-analitik təhlillər ortaya qoyur. Onun "Mirzə Cəlil yanğısı" tədqiqatı elmi ictimaiyyət tərəfindən Cəlilşünaslığa ən gözəl töhfələrdən biri kimi dəyərləndirilmiş və ali məktəb tələbələri üçün dərs vəsaiti kimi təsdiq olunmuşdur.*

*Mehman Qaraxanoğlu bu illər ərzində "Beynəlxalq Sənət Mükafatı" (2005), "Birlikdə yaşamaq sənəti və Mövlanə" Beynəlxalq müsabiqəsinin laureatı (2007), "Vətənpərvərlik mövzusunda ən yaxşı poema" müsabiqəsinin qalibi (2011), "Məmməd Araz Mükafatı" ( 2013), "Vətənpərvərlik mövzusunda ən yaxşı şeir" müsabiqəsinin qalibi (2014), "Beynəlxalq Səməd Behrəngi Ədəbi Mükafatı" (2015), "Fəxri Mədəniyyət İşçisi" (2017), AMEA-nın Fəxri Fərmanı, "İlin Ədəbiyyat adamı" (2019), "Prezident Mükafatçısı" (2019) kimi bir sıra ədəbi mükafatlara layiq görülmüş, müxtəlif müsabiqələrin qalibi kimi dəyərləndirilmişdir.*

*Biz də "Ədəbi Turan" səhifəsi olaraq hörmətli aydınımızı yubiley yaşı münasibətilə təbrik edib, bir sıra ədəbiyyat, fikir adamının yubileyar haqqında qələmə aldığı düşüncələri sizlərə təqdim edirik.*



## Yaxşı ki, varsan, əzizi-mən!

***Əzizim Mehman Qaraxanoğlunun yaşı ahıllıq sərhədlərinə gəlib yetişdi. O bu illər ərzində nəyi qazandı, nələri itirdi? İtirdiklərini ondan yaxşı bilən olmaz. İtirdiklərini onun özü vaxt imkan verəndə təsbeh daşları kimi çevirib yada salmalı, götür-qoy etməlidir. Qazandıqlarını isə Mehmanın dostları bilməli və deməlidir.***

O, hər şeydən əvvəl yaxın adamlarının əsl məhəbbətini, hörmətini qazandı. Azərbaycan ədəbiyyatına isə öz timsalında bir kişi adının əlavə edilməsini qazandırdı. Mehman Qaraxanoğlu professional tənqidçi, ədəbiyyat adamı adını qazandı. Gözəl müəllim, qayğıkeş dost adını, cəfakeş vətən övladı, hörmət və izzət sahibi olmağı qazandı. Məncə, bunlar üçün yaşamağa dəyər.

Mehman imzası ciddi ədəbiyyat söhbəti var deməkdir. Mehman imzası mətnin dərinliyinə girmək bacarığı, eyni zamanda mətnin doğru-dürüst kontekstini müəyyənləşdirmək səriştəsi deməkdir. Mehman imzası yazarın pənahı və oxucunun dostu deməkdir.

Yaxşı ki, varsan, əzizi-mən. Sən və sənin kimi nəcib ədəbiyyatçılar olmasaydı, nanəciblərlə baş çıxarmaq çətin olardı.

Sənə uzun ömür, cansağlığı və könül xoşluğu arzulayıram.

Sənə və yaradıcılığına dərin hörmətlə, dostun Kamal Abdulla.



**Kamal Abdulla**
**Xalq yazıçısı, akademik**

## İşıq zolağı...

Yazıçı Mehman Qaraxanoğlunun 65 yaşı tamam oldu. Bu cümlədəki bir neçə ifadəyə ayrıca şərh vermək gərəkir. Bunun biri "yazıçı" kəlməsidir ki, biz adətən, hekayə, roman yazana "yazıçı" deyirik. Əslində "yazıçı" ifadəsinin rəsmi sənədlərdə ümumi anlam kəsb etdiyi ifadə olunubdur. Bir də ki, kiminsə şair, esseist, ya nasir kimi fəaliyyəti ədəbiyyatdakı janr müxtəlifliyi ilə bağlıdır və bu, epizodik səciyyəlidir. Bütün janrları bir termində ümumiləşdirəndə "yazıçı" sözü alınır. Bu üzdən, Mehman müəllim yazıçıdır və öz böyük romanını yazmaqla məşğuldur. İkinci söz "65" rəqəmi ilə bağlıdır. "65" bir insanın həyatda yaşadığı illərin sayını bildirən faktdır. Yəni M.Qaraxanoğlu bu dünyada nə az, nə çox, düz 65 il yaşayıbdır. Məsələ burasındadır ki, dünyada 65 il yaşayan insanların sayı-hesabı yoxdur. Fəqət hər bir faktın, rəqəmin məzmunu eynən hərf və söz kimi, kontekstdə bəlli olur. 65-in barı-bərəkəti, sirri-sehri nədirsə, nə boydadırsa, Mehman müəllim ədədləri, rəqəmləri də bir o qədər əziz tutur. O özü də 65-in "fayda və zərərlərindən" gen-bol yazıb fikirlərini oxucu ilə bölüşübdür. Bu keyfiyyət M.Qaraxanoğlunun qələminin rəqəmsallığı ilə bağlıdır. Qələm adamlarının həyatının rəqəmlərlə tanıdılmasının tarixi qədimdir. Rəqəm, say kontekstində fəlsəfi məna axtarıb tapmaq da ədəbiyyatın vəzifəsidir.

Mehman bəy rəngləri çox sevir, necə deyərlər, sözün də yaxşı mənada rənglisini xoşlayır. Rəngli ekranlar müasir həyatımızın bir əlaməti olduğu kimi, Mehman bəyin də rəng duyumunda müasir həyatımız qaynayıb-daşır. Yazıları ədəbi prosesin içində irəlini aydınladan işıq zolağı kimidir. Bizim bir çox məşhur yazıçılarımız vaxtilə şeir tərəfdən nəsr tərəfə keçiblər və bu tərəfdə qazancları daha çox olubdur. Mehman Qaraxanoğlu ədəbiyyatın sərhədlərini "bu tərəfə" şair kimi keçibdir və onun şeirinin üslub xüsusiyyətləri elədir ki, bu üsul və vasitələrlə daha geniş və rahat əraziyə, üslubların qovşağına yön almağın mümkün olacağı bəlli idi. Məsələn, hələ o zaman onun postmodern estetika sahəsində əldə etdiyi iş praktikası çərçivəni daha da böyütdü, sonrakı tənqid-təhlil mətnlərində poetik aksessuarları bir qədər də təkmilləşdi. Daha çox Kamal Abdullanın mətnlərinə istinad etməsi də bu bədii ehtiyacdan irəli gəlibdir. Ümumən, M.Qaraxanoğlu kimi sənətkarların qələmində janr seçimi və məhdudiyyəti yoxdur. Onun mətninin energetik gücü janrı yox, metodikanı üstün tutmasındadır. O sanki bədii mətnə yeni poetik cərəyan qoşur, əsərin (bədii yaddaşın) uzunömürlülüyünü təmin etmiş olur. "Dünya-mətn" doğru-dürüst M.Qaraxanoğlunun esselərində daha asan oxunur. Söz onun nəzərində bağlı boğçadır. Ona görə onun "sirrinin" açılması həmişə maraq doğurur. Görəsən, içində nə var? Onun nitqi və intonasiyası həm də bu sualın yaratdığı fikir, mülahizə zənciridir. O, bu iplərlə, zəncirlərlə yerin altına xəbər dalınca gedən nağıl qəhrəmanlarına bənzəyir.

***Qaraxanoğlu qafiyəni mahiyyətin içində arayan sənətçidir. Təsviri sənət, boyakarlıq, qrafikag sadəcə olaraq, "əşyanın" rəsmi kimi "fallıq" kəsb etsə də, onun anlamı rəssamın fikrindən, boyanın, cizginin "altından yazılacaq" cümlədən asılıdır. Beləliklə, bütün təsvirçilərin uğuru sözün başına fırlanmaqdan keçir. Bir şərtlə ki, söz – adamı (adamını) tanımalıdır. Müasir elektron sistemlərdə cihazlar bir-birini necə tanıyırsa, sənət ortaqlığı sənət adamlarının ümumi iş prinsipi olmalıdır. Mehman müəllimin mətni fikir, təsvir paralelləri ilə boy verir, yazı, cümlə, quruluş və sosial düşüncə komplekslərini dağıtmaqla özünə (mətnə) yol açmağa nail olur. Sənəti ümumi ədəbi-bədii rakursda dəyərləndirməyi, mətnin təhlilində sintetika üsulu ilə işləməyi sevir. Bu onun yaradıcılığının ekfrasis mahiyyətindən irəli gəlir.***

Mehman müəllimin mövzu seçimi, təhlil-tənqid sxemləri, bütövlükdə ədəbi külliyyatı müasir dünya ədəbiyyatı, onun bioloji ömrü isə ədəbiyyatın uzunömürlülüyü kontekstində dəyərləndirilməlidir.

Canın sağ, ömrün uzun olsun, əziz Dostum.



**Zakir Məmməd**
**Tənqidçi, ədəbiyyatşünas**

## Ucalıq arzusu

Şair deyir, kəpənəklər otların və çiçəklərin bir-birinə sevgi məktubudur. Amma məncə otlar və çiçəklər kəpənəksiz də ünsiyyət qura bilirlər. Kəpənək onlara, sadəcə, öz sevgilərini nümayiş etdirmək üçün lazımdır. Demək, əslində, otlar və çiçəklər kəpənəyi bir-birinə deyil, bizə göndərirlər. Bir növ şeir, hekayə yazır, rəsm çəkir, hətta, desən, mahnı bəstələyirlər. Yazarla tənqidçinin ünsiyyəti də belədir. Şəxsən mən Mehman müəllimə kəpənəksiz də öz ehtiramımı izhar edə bilərəm. Onunla ünsiyyətim üçün mövcudluğu kifayətdir. Bir də görürsən yazmadığım yazıdan danışır, açmadığımız mətləbdən təsirlənirəm. 65 yaşına isə, səmimi deyim, inanmadım. Burda nəsə bir iş var. Ya sənəddə tarix səhv göstərilib, ya da adam gənclik iksirini tapıb. Müdrikliyə qalanda, yaşla əlaqəsi yoxdur. Müdriklik anadangəlmədir. İcazə verin, yazmadığım yazıdan danışdığım, açmadığım mətləbdən təsirləndiyim kimi, inanmadığım yaşdan da şirin bir sovqat istəyim: neçə olur-olsun, ayağı sayalı olsun, öz əfəndisini ucalıqdan əskik eləməsin.



**Şərif Ağayar**
**Yazıçı**

## Rəqəmlərə uzaqdan baxan təbrik məktubu

Hazırkı çağımızın ədəbiyyatşünaslarının, tənqidçilərinin əksəriyyətinin yazı müstəvisində ortaq cəhəti mətnə, sadəcə, müəyyən standart, texniki, monoton prinsiplərlə yanaşması, daxili qatlara enə bilməməsi, gerçək bədii məziyyətdən uzaq qalmasıdır. Bu nüansı ədəbi təfəkkürün və müasir dövrün daşlaşmış problemi adlandırsam daha doğru olar...

Ancaq vurğuladığım qəbildən olan az qism imza var ki, onların qələmində belə demək mümkündürsə, posttəfəkkür gücü sayəsində bu kimi boyat problemlər öz həllini birmənalı olaraq tapır.

Bu il yubiley yaşını qeyd edən tənqidçi, ədəbiyyatşünas Mehman Qaraxanoğlu da həmin ismlərdəndirg

Mütəmadi olaraq mətbuatda çıxışlarını izləyirəm. Təbii ki, müəyyən məqamlarda fikir ayrılıqlarımız olsa da, bir böyük dəlil var ki, o, real sənətin mahiyyətinə tapınmaqla az öncə vurğuladığım kütləvilikdən özünü ayıra bilmişdir.

***Onun ədəbi düşüncələrində mətnin sərhədsiz fövqünə sirayət etmə potensialı, ədəbiyyatın qandalsızlıq fəlsəfəsinə enmə enerjisi, boz strukturdan imtina cəhdi və buna nail olmaq nöqtəsi özünü daim açıq-aydın şəkildə göstərir. Əslində, Mehman Qaraxanoğlu bəşəri çərçivədə hadisəni müşahidə edən obyektdən hadisəni törədən obyektə çevrilmək prosesini şüuraltı olaraq yaşaya bilir. Şübhəsiz ki, bu onda özündən biixtiyar yox, birbaşa mətnə hökmü ilə baş verir. Çox incələmək olar...***

...Rəqəmlər sadəcə görüş yerlərinin ünvanıdır. Əsas yaşamaq haqqıdır. Yaşamaq haqqınız daim əlinizdə olsun, Mehman Qaraxanoğlu! Ömrün sonrakı fəsillərində rastlaşmaq ümidilə...



**Emil Rasimoğlu**
**Şair**

## Mətnlərimizin dostu

***Həyatda çox dostarımız, yoldaşlarımız olur; bir yerdə oxuyursan, xidmət edirsən, işləyirsən, nələrisə qazanırsan, nələrisə itirirsən, bərkə-boşa düşürsən, çətinliklərə sinə gərirsəng Sonra elə olur ki, taledi, bir yerdən başqa yerə, ya bir şəhərdən başqa şəhərə köçürsən, həyatında təzə adamlar peyda olur, dostlaşır, doğmalaşır, köhnələr isə, – kədərlidi! – yavaş-yavaş unudurur, yaddan çıxır, heç olmamış kimig Beş-üç ən yaxın dost həmişə var, təbii!***

Atalarımızın da dostları olub. Baxmayaraq ki, o dostları biz qazanmamışıq, amma daha etibarlı, mərd olublar; qələbəmizə sevinibləər, məğlubiyyətimizə kədərləniblər, acı göz yaşları axıdıblar.

# Qaraxanoğlu- 65



Bir də var mətnlərimizin dostu, qəribədir; mətnlərimizin bizə qazandırdığı dostlar! Belə şey olmamışdı. Bu dostluğu mən ilk dəfə Mehman Qaraxanoğludan gördüm: əvvəllər heç vaxt görmədiyim, həyatda tanımadığım adam, – lap sonralar Yaradıcılıq Fakültəsində ötəri bir tanışlığımız oldu, düzdü, – bir də baxtım ki, ən yaxın dostlarımdan, xeyirxahlarımdan birinə çevrilib. "Qar Tanrısı" sayəsində, bəli. O hekayəni oxuyub elə şövqlə təhlil eləmişdi ki, bəhs etdiyi mətn belə o təhlilin yanında şil-küt, ruhsuz-qanadsız görünürdü. Sonralar o şövqü başqa müəlliflərin – K. Abdullanın, Ş. Ağayarın, Ataqamıng əsərlərinə yazılan təhlillərdə də gördüm. Ədəbiyyatımızda doğulan ən yaxşı mətnlərə M. Qaraxanoğlu qədər sevinən adamlar azdı. O, əsl söz bilicisi, söz sərrafı olmaqla yanaşı, həm də əsl söz Aşiqidi!

***Yaxşı heç bir mətn Mehman müəllimin gözündən, nəzərindən qaçmır, – müəllifinin kimliyindən, nəçiliyindən asılı olmayaraq.***

Məəttəl qaldım: bu yaxınlarda yazıçı Şərif Ağayarın "YeniYaz" ədəbiyyat saytında "Ən yaxşı hekayəmiz" layihəsində yer alan hekayələrin, belə məlum oldu ki, hamısından M. Qaraxanoğlu yazıb.

Mehman Qaraxanoğlu bəyəndiyi mətnin müəllifini Müəllim ərkilə dinc oturmağa qoymur, təzə əsrlər təmənnası ilə boynuna əlavə məəsuliyyətlər yükləyir, "təzə xammal" tələb edir.

***Bu gün Mehman Qaraxanoğlunun 65 yaşı tamam olur. Bu münasibətlə Müəllimi ürəkdən təbrik edirik, dost ərkilə tələb edirik: 'Zəhmət çəkin, yüz yaşayın! "Xammalımıza" yiyə durun!"***

**Mübariz Örən**
**Yazıçı**

# Astaradan göyüzünəcən...



**Hacı Nərimanoğlu**

***Mehman Qaraxanoğlu 1957-ci ilin 1 Mayında Astarada doğulub. Bəlkə də bu cümlədə statistik rəqəmlərdən yan keçmək olardı, amma... Əksinə, biz burada qrammatikadan kənar olsa da, birdəfəlik üç sözü məntiqi vurğu altına salmaq istəyirik: "1957-ci il'i, "1 May'ı və "Astara'hı... Çünki Mehmanın taleyində hər üçünün öz yeri vardır.***

*Doğuldum 57-də.*
*Hələ Həvva Adəmi doğmamışdı.*
*Ağrı yasaq edilmiş meyvə kimiydi...*
("Avtoportret")

Ağrının yasaq edildiyi bir dövrdə doğulmağın özü də zülümdü... Amma şair əlini uzadıb ağrını budağından üzməli idi. Çünki bunsuz mümkün deyildi. "Ağrı" əsl şair hədiyyəsi idi. Çox-çox sonralar – yəni, 1989-cu ildə, dünyanın ən qarışıq vaxtında, tarixi hadisələrin bir-birini sürətlə əvəz etdiyi bir sürədə şair bu adda bir poema da yazdı. Bu, trilogiyanın ilk poeması idi. Yəqin ardınca hansı poemanın gəldiyini sövq-təbii hiss etdiniz. Bu, "Qanlı Yanvar"dır. "Özümə elegiya" isə bu sırada üçüncü yerdə durur. Ədəbi tənqidin nəzər-diqqətindən tamamilə kənarda qalan ikinci poema Azərbaycan poeziyasında bu mövzuda yazılan ilk poemadır. Cəmi otuz dörd günə yazılıb. Bədii sənətkarlıq cəhətdən əsl sənət nümunəsidir. Cəsarətli vətəndaş mövqeyinə görə tanınmış şair Əhəd Muxtar, Mehmanı "Öz kəfən payını saxlayan şair" adlandırıb. Və bu adda bir esse yazıb "Şəhriyar" qəzetində çap etdirib. Bunlar xeyli sonralar baş verəcəkdi. Hələ Mehman doğuluş ağrıları ilə əlləşirdi:

**Doğulduğum il**
**İllərin ən uzunu olub.**
**Papiros kötüyündən asılan səslə**
**Özünü doğum evinə yetirib atam.**
**Qışqırığıla qarşıladım onu.**
**Xışmalayıb illərlə ovcunda gizlətdiyi**
**Sükutun üstünə qoydu atam.**
**Ölərkən götürdüm ovcundan...**
**Anam yaylığına nəsə bükürdü,**
**Sonralar bildim göz yaşı olduğunu...**

1 May da onun taleyində izsiz ötüşmədi. Özünün dediyi kimi, 1 Mayda doğulsa da, doğumunu 1 gün geri çəkiblər – 30 aprelə. Çünki mamaça Dünya Zəhmətkeşlərinin Həmrəylik Gününə - 1 May paradına getməli olub. Bu isə həmin gün qeydiyyat idarəsinin işləməməsi anlamına gəlir. Və çıxış yolu kimi ən sadə variant seçilib – 30 aprel. Bu da taleyin ironiyası idi:

**Ey ana ağrısını –**
**Yəni, məni tutan mamaça əlləri,**
**Sənin bu qədər geniş açıldığını kim bilirdi? Kim?**
**Ağzına qurban olum,**
**Ey kəndirimi kəsən qayçı,**
**O nə söz idi dedin?!**
**Ey mənə döşlərinin giləsini –**
**İpucu verən anam,**
**Yaşamaq buymuş?! ('Mənim 1 Mayım')**

Astara əbədi olaraq onu ruhuna nəqş olunub. Üçhecalı bu toponim həm də ikiyə bölünən Vətənin qəddar simvolikasına çevrilib:

**Sərhədyanı diyarda mən göz açdım dünyaya,**
**Gördüm sərhəd dirəkləri neştərdi, oxdu.**
**Gördüm hər şeyin sərhədi var dünyada,**
**Təkcə vətənə məhəbbətin sərhədi yoxdu!**
*("Oğluma məktub" poemasından)*

(Adıçəkilən poema Dövlət Sərhəd Xidməti və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilən "Vətənpərvərlik mövzusunda ən yaxşı poema" müsabiqəsinin qalibi (2011) olub).

Bölünüb parçalanma azmış kimi, Astara toponimini bu cür də yozanlar tapılır: "As dara!". "Biz bu amansız hökmü hər an eşidə biləcəyimiz bir qorxu altında böyüdük". Gün-güzaranın ağır çağlarında Səttar Bəhlulzadənin "The Astara oranges" rəsminə xitabən yazdığı çox maraqlı bir şeiri vardır. Burada 28 May metrosu qarşısında sarıbənizli qadınların ovcunda tutduqları sapsarı limonlarla gəlib keçən müsafirlərə yalvarmaları əks olunur:

***Dilənmək olarmış***
***Dopdulu ovucla da:***
***Öncə səs dilənir,***
***Sonra ovuclar:***
***-Beşi bir manata!***
***-Beşi bir manata!***
***O səslə sürünür arxamca sanki Astaram...***
***("The Astara oranges')***

***Bir başqa şeirində isə Astara günəşli bir qiyafədə təsvir olunur:***

***Sapsarı limonları görsən,***
***İnanarsan, göbəyi var günəşin də!***
***("Astarada günəş')***

Astara şair üçün təkcə doğulub boya-başa çatdığı, hal-hazırda yaşadığı məkan deyil, həm də ruhsal bir aləm, dipdiri bir dünya, aləmlər aləmi, bütövlükdə kosmosdur. O, ömrü boyu buranı uzunmüddətli tərk etmədi. Gəncliyində cəhdlər etdi, amma hamısı uğursuzluqa nəticələndi. Anladı ki, Əbədi Ananı – Astaranı heç bir zaman tərk edə bilməyəcək. Və öz həqiqəti ilə barışdı: "Şairlər doğulduğu arealı əbədi tərk edərkən özləri də bilmədən İlahi Nizamı pozmuş olurlar".

***'Salam, ata evim, Anasız evim... Üşənir, ay evim, ruhum, bədənim, Özümə, de, necə "yetim" deyim mən. Kirəmidli damın atamdı mənim, O əziz anamdı torpaq döşəmən.Yuxuda qapın da məni qovurdu, İş işdən, ay evim, keçibdi bəlkə? O qədim rəflərin batıq ovurdmu, Özgə zamanlara keçiddi bəlkə? Bir zaman quş kimi ötürdün dil-dil, Susursan... kəsiblər dilini sanki. Sıxılıb, daralıb, əvvəlki deyil, Qayışla sıxıblar belini sanki. Köhnə şuluqçuyam, bilirsən, evim, Görmək istəmirəm üzündə kədər. Aç öz qayışını, ey əziz evim, Döy məni, Döy məni, Ürəyin istəyən qədər..."('Salam')***

Bu şeir uzaqlarda düşüb qalan xatirələrimizi lap yaxına – gözümüzün önünə dartıb gətirir. Kirəmidli dam, torpaq döşəmə, batıq ovurdları, özgə zamanlara keçidi xatırladan rəflər, şuluqluq etdiyimiz zaman ata belindən açılan qayış və ümumilikdə şeirin qüssəli ritmi - hər şey, hər şey o çağlarımızısimvolizə edir. Görkəmli şairimiz Ç.Əlioğlu haqlıdır: ".... Poeziya, axı, həmişə uzaqdakına müraciətdir. Mehman Qaraxanoğlu uzağı yaxın edə bilir". ("Ədəbiyyat qəzeti" 2004-cü il)

Mehman Qaraxanoğlu dünyası ilə kim yaxından tanış olursa, heyrətini gizlədə bilmir. O sanki Buddanın bu sözlərini maddiləşdirir: "Nəzərə çarpmadan yaşa!". Yüzə yüz əminəm ki, əgər onun sivilizasiyadan qaçmaq şansları olsaydı, bunu çoxdan edərdi. "Məndən çox inkarçılıq mövqeyi tutan adam yoxdur. Üç gün ərzində nə qədər əlləşdim, Mehman müəllimin obrazında qaranlıq bir nöqtə tapa bilmədim. Hər obada çox yox, Mehman müəllim kimi bir insanın yaşaması bəsdir. Baxırsan və düşünürsən ki, yox, hər şeyi zamanın üstünə atmaq zəiflik əlamətidir. Bütün çətinliklərə sinə gərib paklığını, müqəddəsliyini qoruyanlar da vardır. Cek Londonun təbiri ilə desək, "göylərdə müqəddəs qalmaq asandır". Mən Astaraya Bazarov kimi getmişdim, Don Kixot kimi qayıtdım". (Seymur Baycan. 2003-cü il)

"Mehman Qaraxanoğlu 10 dəqiqə pis adam rolunda qala bilməz". Böyük alimimiz Məhərrəm Qasımlının fikirləridir.

Mehman yaşamı ilə elə bil böyük şairimiz Ramiz Rövşənin aşağıdakı suallarını səssizcə cavablandırır:

**Bir dəfə də gəlmişəmmi?**
**Gəlmişəmmi, görmüşəmmi?**
**Yaşamışam, ölmüşəmmi?**

Mehman sanki bir yox, bir neçə dəfə gəlib gedib. Özü demişkən, onun gözləri qarşısında təkcə tanış sular yox, hər şey axıb gedir; ağaclar da, quşlar da, ata-ana qəbirləri, sevgilər də, doğrular da, yalanlar da... Və özü də ikinci, üçüncü və ya dördüncü bir mehmanın gözləri qarşısında axıb yox olur. Bu sonsuz gedişatda heç özünü də tutub saxalaya bilməyən bir insanı nə ilə heyrətləndirmək olar?! Amma o, bizi heyrətləndirir. "M.Qaraxanoğlu məhz orda - əyalətdə, Astaranın dağlarla və dənizlə əhatə olunmuş Şiyəkəran kəndində yaşayır və müəllimlik edir. Ən maraqlısı isə odur ki, bəlkə də həmkəndlilərinin heç biri hələ də bilmir ki, onlarla eyni kənddə yaşayan bu adam bütün xüsusuyyətləri ilə - alicənablığı, səmimiliyi, yazı-pozusu, ziyalılığı, saflığı, bir sözlə, insani keyfiyyətləri ilə birgə bir dağ misallıdır. Görünməyən bir dağ. Bəlkə də görülməyən bir dağdır". (Samir Sədaqətoğlu. "Dağların içində itən o dağ" "Ədalət" qəzeti, 14 sentyabr, 2002-ci il)

Şeirlərinin birində yazır: "Salam, Tək Adam! Dünyanın nə vecinə, könüllü enmisən təkliyin təkinə..." Ona zorla heç nəyi elətdirmək olmaz. Könüllülük onun əsas prinsipidir. Hətta təkliyin təkinə də könüllü enib. Bu da bir asudəlik fonu yaradır. Vaxtilə "Ulduz"da çıxan şeirləri Xalq şairi Fikrət Qocanı da heyrətləndirmişdi:

**İşıq haqda oxuyur qaranlıq dalan.**
**Payız ağacları çiyni açıq qadınlar kimi...**
**Özümdə dəfn olunmuşam,**
**Qəbri açmaq neçin?!**

F.Qoca yazırdı: "Mən təsəvvür edirəm, Mehman o kənddən qəzetlərdəki hap-gopa, ədəbiyyatətrafıçeynərtilərə necə ikrahla baxır". (525-ci qəzet, 2003-cü il)

Sözə söz kimi, leksik vahid kimi deyil, dünyadərkinin kodu, şifrəsi kimi baxmaq, hər bir müəyyənlikdə qeyri-müəyyənlik axtarıb tapmaq onun şakəridir. O, heç yerdə qərar tuta bilmir. Sözdən başqa. Haralara getsə, sonda sözə qayıdır. Özü deyir: "Gör mənim nə qədər sonum var?!"

**Köhnə payız patefonunda**
**Fırlanır sentyabr valı...**
**Günlər iynəsi ilişmiş val kimi**
**Dolanırlar ağacların başına,**
**Ölüm tökülür boş-boşuna...**

Yeniliksiz yaşamaq çətindir. Hətta şair olmayanalar da belə düşünür - evdəki əşyaların yerini ildə azı bir dəfə dəyişənləri nümunə gətirmək olar. Mehman da poeziyada mütəmadi olaraq yeniliklər etməyə can atıb - ənənəvi şeirinsınırları daxilində və ondan kənar. "Qədim bayatının sirli dərdi" məqaləsində heca vəznli digər şeirlərimizin də bayatı dərdinə mübtəla olduğunu, yəni əvvəlki iki misranın sonrakılar üçün hazırlıq rolu oynadığını elmi dəlillərlə əsaslandırmağa çalışdı və şeirin ilk iki misrasından imtina etdi. Eksperiment baş tutdu. Çox maraqlı şeir nümunələri yarandı. Tənqidimizin ağsaqqalı V.Yusifli yazırdı: "Mehman Qaraxanoğlunu son illərdə tanımışam. Şeirlərində müasir poeziyanın yeni meyilləri ilə səsləşən cəhətlər üstünlük təşkil edir. Mümkün qədər şablondan, stereotipdən qaçmağa çalışır".

"Mehman Qaraxanoğlu – fərdi üslubu, bənzərsiz təfəkkürü ilə hər kəsdən fərqlənir. O, insanın ruhunu azadlığa səsləyən şairdir. Onun postmodern düşüncə standartlarını ifadə edən qeyri-standart yazı üslubunda təfəkkürə də, dilə də yüklənmiş proqramlar ən mürəkkəb fikir axtarışlarını aparmağa imkan verir. Qaraxanoğlunu oxuyanda adam estetik bilgilər üzrə, incəsənət sahəsində analogiyalar aparmaq həvəsinə düşür" Tənqidçi-ədəbiyyatşünas Zakir Məmmədin fikirləridir. Çox dəqiq qənaətlərdir. Mehmanın hər bir yazısını – istər şeir olsun, istər tənqidi məqalə və ya esse, fərqi yoxdur, oxuyarkən bütövlükdə incəsənətin sehrli atmosferinə düşürsən. Özünü səsin (musiqi), rəngin (rəssamlıq), daşın (heykəltaraşlıq), vizual dünyanın (kino) sintezindən yaranmış qəribə bir aləmdə hiss edirsən.

"Özün, Özün söyləyirdin: Bir adamıq, Bir adam! Sən gedəli, Bu kənd daha Minalanır adam-adam... Yaz girəli, Basdırmışıq on bir adam... Qorxa-qorxa, Ürkəürkə soruşursan: Salamatmı O bir adam?!" ("Başkəndə məktub") Bu kiçik şeirin daxilində sıxılıb yığılmış poetik enerjini sözlə ifadə etmək çox çətindir. Sanki iki, üç, dörd, beş, on adamım həsrət və nigarançılığı bir adamda cəmlənib. O bir adam isə bütün bu yoxolmaların fonunda, görəsən, mövcuddurmu? Şeirin tempi də narahat adamın halına bənzəyir – yüyürə-yüyürə hal-əhval soran adamın halına! Bu, XXI əsrin adamı – həməsrimizdir.

***Filologiya elmlər doktoru, tənqidçi Tehran Əlişanoğlu: 'Mehman Qaraxanoğlunun sizin qəzetdə ("Ədalət" qəzeti nəzərdə tutulur-H.N.) gedən şeirləri məni yaxşıca diksindirdi: onu 'Söz', 'Şəfəq"jurnallarında izləsəm də, istedadının məxsusiliyinə nəhayət inandım; qarşımızda yenə də 1960-80-cı illər şeirinin içindən keçib gəlmiş ruhdur, amma bu tənhalaşmış ruh qloballaşmış dünyada, kosmik havadakı dəyişkənliyi necə də həssaslıqla içinə hopdura bilir; ona da bir daha inandım ki, həqiqətən də belədir, indi ucqar Astarada da oturub, ürək 'antena'hı birbaşa kainata kökləmək imkanları gerçəkdir"***

Mehman Qaraxanoğlu çoxşaxəli yaradıcılığa malikdir. Ədəbiyyatşünas-alimdir. Talış olduğu qədər də Azərbaycanlıdır. Çox sayda ədəbi-tənqidi təhlillər və esselər müəllifidir. Hələ mətbəə qoxusu getməmiş "Mən konteksti düşünürəm" kitabında müxtəlif illərdə qələmə aldığı ədəbi-tənqidi təhlilləri və esselərinin bir hissəsi yer alıb. Müəllif ədəbiyyatşünaslıqda yeni bir istiqamətin – mətn gizlinlərinin aşkarlanması fonunda hissi tənqidin çox gözəl nümunələrini yaratmış, müasir ədəbi prosesin elmi-nəzəri problemlərinə diqqəti yönəltməklə fərqli yanaşmalar ortaya qoymuşdur. Mehman ədəbi mətnlərə aşırı dərəcədə həssas münasibət bəsləyir. Bu haqda görkəmli yazıçımız, akademik Kamal Abdulla çox maraqlı fikirlər söyləyib: "Mehmanın son yazıları mənim diqqətimi cəlb etdiyi kimi digər yazıçı dostlarım üçün də maraqlı oldu. Onun yazılarında öz məsləkdaşımı gördüm. Mehman Qaraxanoğlu digərlərindən fərqli olaraq hissi tənqid edir. Əlbəttə, bu gün tənqidə kövrək addımlarla daxil olan "hissi tənqid-"igenişləndirmək lazımdır. Bu gün tənqid hansı funksiyadadır, tənqid nə edir, nə etməlidir, suallarına cavab vermək asan deyil. Baxın, bu cavablardan birini Mehman müəllim verdi. Yəni, tənqid belə olsa daha yaxşıdır. Mən də onu dəstəkləyirəm ki, tənqid ancaq bu gün rasional nöqteyi- nəzərdən olmamalıdır, tənqid hissiyatla olmalıdır....Ədəbiyyatçı, ədəbiyyatşünas, bir əsər haqqında söz demək istəyən adam ancaq bəyəndiyi sözləri deməlidir. Bəyəndiyi əsərlər haqqında danışmalıdır. Bəyənmədiyi əsərlərə bəyəndiyi əsərlər vasitəsiylə mesaj göndərməlidir. Pis əsərə pis əsər deməyin mənası yoxdur. Yaxşı əsərə yaxşı deməklə, pisə də pis demiş olursan artıq. Əsəri oxuyub qiymət vermək istəyən adam, yaxşı bildiyi şeylərdən yazmalıdır. Bu mənim qəti fikrimdir. Ona görə də, mən Mehman Qaraxanoğlunu təqdir edirəm ki, o yaxşı hesab etdiyi mətnlərdən yazır. Mehman müəllim mərkəzdə formalaşan ədəbiyyatın nümayəndəsi deyil, ədəbiyyatın cənub bölgəsinin nümayəndəsi kimi çıxış edir, fərqi yoxdur, əsas odur ki, ədəbiyyatı təmsil edir..."

***Mənim tələbəlik illərindən - 43 ildən bəri dostluq etdiyim Mehman Qaraxanoğlunun əmək kitabçasında 1 sətir var: Astara rayonunun Şiyəkaran kənd orta məktəbinin müəllimi. Kənd müəllimi olub qalıb da tanınmış alim, şair və bunlardan öncə də ləyaqətli insan olmanın, təmiz, qürurlu ömür yaşamanın nümunəsidir Mehman Qaraxan oğlu Əliyev.***

***Təbrik edirəm, 60 yaşına xoş gəldin, əziz dost!***

**Səhifəni hazırladı: Tural Turan**